**Kənd inzibati ərazi vahidlərində həyətyanı torpaq sahələri, qəsəbə və şəhərlərdə fərdi yaşayış evləri, bağ evləri, fərdi və kooperativ qaraj tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması Qaydasının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli, 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kənd inzibati ərazi vahidliklərində həyətyanı torpaq sahələri, qəsəbə və şəhərlərdə fərdi yaşayış evləri, bağ evləri, fərdi və kooperativ qaraj tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 20 iyun 2000-ci il
106

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 20 iyun tarixli, 106 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Kənd inzibati ərazi vahidliklərində həyətyanı torpaq sahələri, qəsəbə və şəhərlərdə fərdi yaşayış evləri, bağ evləri, fərdi və kooperativ qaraj tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması**

**QAYDASI**

1. Kənd inzibati ərazi vahidliklərində həyətyanı torpaq sahələri, qəsəbə və şəhərlərdə fərdi yaşayış evləri, bağ evləri, fərdi və kooperativ qaraj tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün ayrılan torpaq sahələrinin ölçüsü yerli şəraitdən və torpaq ehtiyatı imkanlarından asılı olaraq, həmçinin müvafiq yaşayış məntəqələrinin planlaşdırılması və tikinti layihələri, eləcə də normaları nəzərə alınmaqla bələdiyyələr (dövlət mülkiyyətində olan torpaq sahələrində qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində yerli icra hakimiyyətləri) tərəfindən müəyyən edilir.

2. Kənd inzibati ərazi vahidliklərində həyətyanı torpaq sahələri, qəsəbə və şəhərlərdə fərdi yaşayış evləri, bağ evləri, fərdi və kooperativ qaraj tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması ilə əlaqədar aşağıdakı sənədlər müvafiq bələdiyyə (torpaq sahəsi tələb edilən ərazi dövlət mülkiyyətində olduğu halda isə müvafiq yerli icra hakimiyyətinə) təqdim edilir:

a) kənd inzibati ərazi vahidliklərində həyətyanı torpaq sahəsinin ayrılması üçün fiziki şəxsin ərizəsi;

b) qəsəbə və şəhərlərdə fərdi yaşayış evlərinin, bağ evlərinin, fərdi və kooperativ qarajların tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə zəruri tikintilərin inşası, habelə çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin və kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün torpaq sahəsinin ayrılması ilə əlaqədar hüquqi və fiziki şəxslərin müraciəti.

Hüquqi və fiziki şəxslərin ərizə və müraciətləri 10 gün müddətində baxılmaq üçün rayon (şəhər) torpaq şöbələrinə göndərilir. Rayon (şəhər) torpaq şöbələri ərizə və müraciətlərdə göstərilmiş torpaq sahələrinin müvafiq olaraq yerquruluşu planını, yaşayış məntəqəsinin baş inkişaf planını, şəhər və qəsəbələrdə memarlıq xidmətinin rəyini nəzərə almaqla, ayrılması nəzərdə tutulan sahənin 1:2000, 1:5000 və ya 1:10000 miqyasında cizgisini (planını) sifarişçinin vəsaiti hesabına hazırlayır və təsdiq edərək öz rəyi ilə birlikdə müvafiq bələdiyyəyə (yerli icra hakimiyyətinə) qaytarır.

3. Bələdiyyə (yerli icra hakimiyyəti) həmin sənədlərə baxaraq 15 gün müddətində torpaq sahəsinin ayrılması barədə (dövlət mülkiyyətində olan torpaq sahəsi istisna edilməklə, torpaq sahəsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada mülkiyyətə verildiyi halda, onun dəyəri ödənildikdən sonra) qərar qəbul edir və ayrılmış torpaq sahəsinə mülkiyyət və ya istifadə hüququna dair müvafiq sənədlər hazırlanması üçün öz qərarından və ayrılan torpaq sahəsinin cizgisindən (planından) çıxarışı müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Torpaq Komitəsinə və ya Naxçıvan Muxtar Respublikasının Dövlət Torpaq Komitəsinə göndərir.

4. Azərbaycan Respublikasının Dövlət Torpaq Komitəsi və ya Naxçıvan Muxtar Respublikasının Dövlət Torpaq Komitəsi 10 gün müddətində torpaq mülkiyyətçisinin və ya istifadəçisinin vəsaiti hesabına torpağa mülkiyyət və ya istifadə hüququna dair sənədi hazırlayır və torpaq üzərində hüquqların dövlət qeydiyyatına alınması, habelə torpaq mülkiyyətçisinə və ya istifadəçisinə təqdim edilməsi üçün müvafiq rayon (şəhər) torpaq şöbəsinə göndərir.

**Qeyd.** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrinin yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S.2584-2585.